Biznes və idarəetmə Məktəbinin Fakültə Elmi Şurasının
03 fevral 2025-ci il tarixli 01 saylı iclasının protokolundan

ÇIXARIŞ

Bakı şəhəri 03.02.2025-ci il

**İclasın sədri: dos. N.Mirzəyev**
**Elmi katib: müəllim. Ü.Xudaverdili**

**İştirak edirlər:** Fakültə Elmi Şurasının 11 nəfər üzvündən 10 nəfər: dos. Natiq Mirzəyev (sədr), prof. Səfər Pürhai, dos. Gülnisə Mustafayeva, dos. Kəmalə Dadaşova, i.ü.f.d. Rasim Abbasov (sədr müavini), i.ü.f.d. Xanım Ağayeva, müəllimlər Ülviyyə Xudaverdili (elmi katib), Kəmalə Hüseynova, Vüsal Heydərov, Şəms Murad (TGT), Aytən İsmayılova (TEC)

**Gündəlikdə duran məsələ:**
**Fakültə üzrə Payız imtahan sesiyasının (əyanı, qiyabi) nəticələri və qarşıda duran vəzifələr**

**Eşidildi**

"Biznes və idarəetmə" Məktəbinin dekanı dos. Natiq Mirzəyev bildirdi ki, Fakültənin I semestr imtahan sesiyasının (əyanı, qiyabi) nəticələrini təhlil etmək və qarşıda duran vəzifələrini müəyyənləşdirmək vacibdir. Ümumi olaraq fakültə üzrə aşağıdakı göstəriciləri nəzərinizə çatdırıram: ümumi imtahan sayı - 160, fənn sayı-83, ümumi tələbə sayı - 422, orta müvəffəqiyyət göstəricisi - 84.1%, orta keyfiyyət göstəricisi - 48,3%. Qeyd etmək istəyirəm ki, bütövlükdə nəticələr yaxşıdır, lakin bəzi qruplarda imtahan nəticələrini qənaətbəxş hesab etmək olmaz. Məktəbimizin nəzdində fəaliyyət göstərən kafedralar üzrə nəticələr yaxşıdır. Digər kafedraların fənnləri üzrə müvəffəqiyyət göstəriciləri heç də ürəkaçan deyil. Bu nəticələr nəzarətdə saxlanılmalı və yenidən təhlil olunmalıdır.

**Çıxışlar**

**"Marketinq və idarəetmə" kafedrasinin müdiri dos. Gülnisə Mustafayeva** bildirdi ki, Fakültənin I semestr imtahan sessiyasının nəticələri, ümumilikdə, tələbələrin akademik fəaliyyətinin qiymətləndirilməsində əhəmiyyətli rol oynayır. Əyanı və qiyabi təhsilalma proqramlarında fərqli nəticələr qeydə alınmışdır, amma ümumilikdə, tələbələrin tədris materiallarını mənimsəmə səviyyəsi müəyyən edilir. Qarşıda duran vəzifələr, həmçinin tələbələrin elmi fəaliyyətə cəlb edilməsi, tədris keyfiyyətinin artırılması və müsbət nəticələrin davamlı olması üçün tədris heyətinin əməkdaşlığı vacibdir. Bu il üçün əsas prioritet, tədris proqramlarının müasir tələblərə uyğunlaşdırılması və tələbələrin akademik inkişafının dəstəklənməsidir.

**"Turizm və sahə iqtisadiyyatı" kafedra müdiri prof. Səfər Pürhani** bildirdi ki, nəticəyə əsasən, kafedramız üzrə ümumi göstəricilər yaxşıdır. Ümumi olaraq kafedramız üzrə orta müvəffəqiyyət göstəricisi 85%-dən yuxarıdır. Keyfiyyət göstəricisi adətən yüksək bal toplayan, dərin biliyə sahib tələbələrin faizini əks etdirir və əsas hədəfimiz bu göstərici üzrə də yüksək nəticə əldə edməkdir. İmtahan nəticələri əsasında gələcəkdə tədris metodlarının inkişaf etdirilməsi, tədris proqramlarının yenilənməsi və əlavə dəstək tədbirlərinin görülməsi vacibdir. Qarşıda duran vəzifələr, həmçinin tələbələrin elmi fəaliyyətə cəlb edilməsi, tədris keyfiyyətinin artırılması və müsbət nəticələrin davamlı olması üçün tədris heyətinin təkmilləşdirilməsidir.

Təkliflər açıq səs verməyə təqdim edildi. Qərar layihəsi yekdilliklə qəbul edildi.

**Qərara alındı:**

1. Tədris proqramları müasir tələblərə uyğunlaşdırılsın və dərslərin tədrisi zamanı müasir metodlardan istifadə daha da artırılsın;
2. Qeyri-ixtisas və digər kafedraların fənləri üzrə proqramlar fakültə ixtisaslarına uyğunlaşdırılsın və asanlaşdırılsın;
3. Fənlər üzrə əlavə məsləhət saatları keçirilsin və imtahanların sual strukturu, tələbələrin tənqidi və analitik düşünmə bacarıqlarını yoxlayacaq formada optimallaşdırılsın.

Sədr: dos.Natiq Mirzəyev

Elmi katib: m.Ülviyyə Xudaverdili